AZƏRBAYCAN XƏBƏRLƏRİ

Səbinə Əliyeva yenidən Ombudsman seçilib

Noyabr 03, 2026



Xalqın müvəkkili xalqdan 30 dəfə çox maaş almalıdırmı?

Milli Məclisin bu gün, noyabrın 3-də keçirilən iclasında "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) seçilməsi haqqında" məsələ müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra keçirilən səsvermədə **Səbinə Əliyeva** səs çoxluğu ilə növbəti müddətə Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) seçilib.

Bu vəzifəyə prezident İlham Əliyevin Milli Məclisə göndərdiyi sənəddə üç nəfərin namizədliyi irəli sürülmüşdü. Namizədlər **Səbinə Əliyeva**, **Ceyhun Qaracayev** və **Elşanə Vəliyeva** idi.

Ceyhun Yasinali oğlu Qaracayev 2010-2025-ci illərdə Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi olub.2016-cı ildən CPT-nin (İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin) müstəqil ekspertidir (mandatı 2028-ci ilədəkdir).

Elşanə Rafiq qızı Vəliyeva isə Ali Məhkəməsinin hakimi, Hakimlərin Seçki Komitəsinin üzvüdür.
Amma bir çox təhlilçilər digər namizədlərin formal xarakter daşıdığını və S.Əliyevanın seçiləcəyini qabaqcadan deyirdilər. Onlar bunu onun hakimiyyətin gerçək seçimi olması ilə izah edirdilər.

Ombudsman 7 il müddətinə seçilir və eyni şəxs bu vəzifəyə iki dəfədən artıq seçilə bilməz.

Xatırlatma

Azərbaycanda Ombudsman Aparatı 2002-ci ildən fəaliyyət göstərir. Bu quruma 17 il ərzində **Elmira Süleymanova** rəhbərlik edib. Hətta o dövrdə qanunla müəyyən olunmuş vəzifə müddətinin aşıldığı bildirilirdi.

2019-cu ildən onu S.Əliyeva əvəz edir. O, Milli Məclisin komitə sədri, hakim Yeni Azərbaycan Partiyasının (YAP) təmsilçilərindən olan Siyavuş Novruzovun həyat yoldaşıdır.

Hüquq müdafiəçiləri, bir qayda olaraq, Ombudsmanın illik hesabatlarını tənqidlə qarşılayırlar. Bu tənqidlərdə əsasən hesabatda təcridxanalardakı konkret işgəncə halları ilə bağlı şikayətlərə toxunulmaması qabardılır. Ombudsman Aparatı isə bu tənqidləri əsassız sayır.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur